# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA ANTİİNHİSAR VƏ İSTEHLAK BAZARINA NƏZARƏT DÖVLƏT XİDMƏTİ
# və
# MACARISTAN RƏQABƏT QURUMU ARASINDA ANLAŞMA MEMORANDUMU

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Macarıstan Rəqabət Qurumu (bundan sonra "Tərəflər"),

İqtisadi rəqabəti təşviq etmək, rəqabət qanunvericiliyini və siyasətini inkişaf etdirmək niyyətlərini ifadə edərək,

Rəqabət siyasəti sahəsində beynəlxalq əməkdaşlıq prosesini təşviq etməyə səy göstərərək,

İkitərəfli münasibətlərin inkişafı üçün əlverişli şəraitin yaradılmasına çalışaraq,

Bərabərlik və qarşılıqlı fayda prinsiplərindən çıxış edərək aşağıdakılar barədə razılığa gəldilər:

## Paraqraf 1
## Məqsəd

Bu Anlaşma Memorandumunun məqsədi Tərəflərin rəqabət qanunvericiliyinə və siyasətinə dair əməkdaşlığın qurulması sahəsində tərəfdaşlıq niyyətini ifadə etmək, həmçinin gələcək əməkdaşlıqla bağlı qarşılıqlı məqsəd və vəzifələri müəyyən etməkdir.

Bu Anlaşma Memorandumu çərçivəsində konkret fəaliyyətlər Tərəflər arasında məsləhətləşmələr yolu ilə müəyyən ediləcəkdir.

## Paraqraf 2
## Əməkdaşlıq istiqamətləri

Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

- antiinhisar tənzimlənməsi sahəsində fəaliyyət və antiinhisar qanunvericiliyinin pozulması halları üzrə araşdırmaların aparılması ilə bağlı təcrübə mübadiləsi;
- normativ aktların, təlimatların, müvafiq statistik və analitik məlumatların mübadiləsi;
- digər tənzimləyici qurumlarla və ümumiyyətlə, beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması üzrə təcrübə mübadiləsi;
- Tərəflərdən birinin həyata keçirəcəyi regional və ya beynəlxalq tədbirlər barədə digər Tərəfin məlumatlandırılması və tələb olarsa, iştirakının təmin edilməsi;

- rəqabət sahəsində strategiyaların və siyasətin hazırlanmasına köməklik göstərilməsi;
- müvafiq Tərəfin ərazisində baş verən ədalətli rəqabət mühitinə təsir edən pozuntular barədə digər Tərəfin xəbərdar edilməsi.

**Paraqraf 3**

**Texniki yardım**

Macarıstan Rəqabət Qurumu İqtisadiyyat Nazirliyi Yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin aidiyyəti sahələr üzrə fəaliyyət göstərən mütəxəssislərinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Budapeştdəki Regional Rəqabət Mərkəzi (RCC) tərəfindən təşkil edilən müvafiq seminar və təlimlərdə iştirakının tərəfdarıdır və onlara iştirak üçün imkan yaradacaqdır.

**Paraqraf 4**

**Əlavələr və dəyişikliklər**

Bu Anlaşma Memorandumuna əlavələr və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumunun 10-cu paraqrafının müddəalarına uyğun olaraq qüvvəyə minən və onun ayrılmaz hissəsi sayılan ayrıca protokollar formasında edilə bilər.

**Paraqraf 5**

**Əlaqələndirici şəxslər**

Tərəflər bu Anlaşma Memorandumunun həyata keçirilməsi üzrə təyin edilmiş şəxslərin adlarını və əlaqə məlumatlarını mübadilə edəcəklər. Əlaqələndirici şəxslərlə bağlı hər hansı dəyişiklik olarsa, Tərəflər bir-birini xəbərdar edəcəklər.

**Paraqraf 6**

**Xərclər**

Bu Anlaşma Memorandumu Tərəflərin üzərinə öz milli qanunvericiliklərinə və ya beynəlxalq hüquqa uyğun olaraq heç bir maliyyə öhdəlikləri qoymur. Tərəflər tərəfindən yazılı razılaşdırılmadığı təqdirdə, hər bir Tərəf bu Anlaşma Memorandumu və onun həyata keçirilməsi ilə bağlı öz xərclərini ödəyəcəkdir.

Budapeştdə OECD-GVH Regional Rəqabət Mərkəzinin fəaliyyəti ilə bağlı xərclər Mərkəz tərəfindən ödəniləcəkdir.

## Paraqraf 7

## Fikir ayrılığı

Bu Anlaşma Memorandumunun təfsiri və həyata keçirilməsindən irəli gələn fikir ayrılıqları Tərəflər arasında qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll ediləcəkdir.

## Paraqraf 8

## Öhdəliklər

Bu Anlaşma Memorandumu beynəlxalq hüquqla tənzimlənən hər hansı hüquq və öhdəlik yaratmır. Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin müvafiq dövlətlərinin imzaladığı beynəlxalq təşkilatların hər hansı müqavilələri və ya hər hansı Tərəfin qoşulduğu beynəlxalq qətnamələrlə bağlı, eləcə də Macarıstanın Avropa İttifaqına üzvlüyündən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

## Paraqraf 9

## Əlavə müddəalar

Qeyri-məcburi Memorandum: Razılaşdırılır ki, bu Anlaşma Memorandumunun heç bir müddəası məcburi hesab olunmayacaq və ya təfsir edilməyəcəkdir. Belə ki, "olmalıdır", "olacaqdır", "məcburdur", "etməlidir" və "edərdi" kimi ifadələr hər hansı öhdəliklər deyil, səylərin göstərilməsi kimi şərh edilməlidir.

Konfidensiallıq və aşkarlıq: Bu Anlaşma Memorandumuna əsasən konfidensiallıq və aşkarlıq öhdəliklərinin müəyyən edilməsi yolu ilə beynəlxalq müqavilənin yaradılması nəzərdə tutulmur.

## Paraqraf 10

## Yekun müddəalar

Bu Anlaşma Memorandumu qeyri-məhdud müddətə bağlanır və imzalandığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu Tərəflərdən biri digərinə yazılı bildiriş təqdim etməklə ləğv edilə bilər.

Bu Anlaşma Memorandumu yazılı bildirişin alındığı tarixdən 3 (üç) ay sonra qüvvədən düşəcəkdir.

______ ______ tarixində hər biri Azərbaycan, macar və ingilis dillərində olmaqla iki nüsxədə imzalanmışdır, hər bir mətn autentikdir. Təfsirdə fikir ayrılığı yaranarsa, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında Antiinhisar
və İstehlak Bazarına Nəzarət Dövlət
Xidməti
adından

----------------------------------------
Məmməd Abbasbəyli
Rəis

Macarıstan Rəqabət Qurumu
adından

----------------------------------------
Ksaba Balaş Riqo
Sədr